**Kazus № 5**

Müəllif P.İ. Rusiyada bir neçə antisemit məzmunlu məqalələr dərc etmişdir. Həmin məqalələrdə müəllif II dünya müharibəsi illərində kütləvi şəkildə soyqırıma məruz qaldıqlarını iddia edən yəhudiləri yalançı-ağıllılar kimi qələmə verir, belə hadisələrin olmadığını, qırğınların isə soyqırım deyil, sadəcə müharibə zamanı qarşı tərəflərin bir-birini müharibə qanunları əsasında qətlə yetirməsi zəmində yarandığını iddia edir. Həmçinin məqalədə yəhudilər Rusiyada olan bütün bəlaların yeganə səbəbkarları adlandırılır və onlara dair digər alçaldıcı ifadələr işlədilir.

Müəllif Rusiya Federasiyasının Cinayət Məcəlləsinin milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması maddəsi ilə təqsirli bilinərək azadlıqdan məhrumetmə cəzasına məhkum edilir.

Ərizəçi Avropa Məhkəməsinə müraciət edərək, onun Konvensiyanın 10-cu maddəsində nəzərdə tutulmuş sərbəst ifadə azadlığı hüququnun pozulduğunu iddia edir.

Sual: 10-cu maddənin pozuntusu baş vermişdirmi?

**Cavab:** Pavel İvanov Rusiyaya qarşı iş.

Məhkəmə şikayəti qəbul edilməyən hesab edir (hüquqdan sui-istifadə əsası ilə).

*Hazırladı: Sevinc Əliyeva*